# HEYDƏR ƏLİYEV–100

*S.Dadaşova. "Mən fəxr edirəm ki, azərbaycanlıyam!"*
*// Əlyazmalar yanmır, 2023, №1 (16), s. 3-7.*

UOT: 930.85

**Sevinc Dadaşova**
*AMEA M. Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç. 26*
*e-mail: sevadadashova1111@gmail.com*

## "MƏN FƏXR EDİRƏM Kİ, AZƏRBAYCANLIYAM!"

**Xülasə**

Məqalədə Ümummilli lider Heydər Əliyevin Azərbaycan ədəbi irsinə olan qayğısını əks etdirən faktlar yer almışdır. Azərbaycan dilinin, ədəbiyyatının və klassiklərin bu gün xalq tərəfindən mənimsənilərək öyrənilməsi, tarixin dərin və qaranlıq qatlarında yatan gerçəkliklərin üzə çıxması, üzərində bir çox millətin, xalqın gözü olan klassiklərimizə yaxud milli sərvətimiz sayılan ədəbi nümunələrimizə sahib çıxa bilməmiz Ulu öndərin idarəetmə strategiyasının nailiyyətlərindən hesab edilə bilər.

Heydər Əliyev illərlə adı, dili, tarixi süni şəkildə təhrif edilərək kiçik qardaş, kiçik millət durumuna salınaraq özünü dəyərsiz və yetərsiz hiss etməyə məhkum buraxılan böyük tarixi keçmişə malik, tarixi yaradan bir xalqın yenidən milli şüurunun oyanmasına, onun milli mənsubiyyətilə yenidən fəxr etməsinə şərait yaratmış və "Mən fəxr edirəm ki, azərbaycanlıyam" demişdir.

Ulu öndər İmadəttin Nəsiminin, Nizami Gəncəvinin, Məhəmməd Füzulinin, "Kitabi-Dədə Qorqud"un və s. genişmiqyaslı yubiley mərasimlərinin təşkil olunması, klassiklərin əsərlərinin müxtəlif dillərə tərcümə olunaraq dünyaya yayılması ilə birmənalı şəkildə onların Azərbaycan torpağına aid olduqlarını hər kəsə bəyan etmişdir.

Bunlardan əlavə Böyük lider bəzi qərarlar aldıqda el ağsaqqallarıyla, ziyalılarıyla, öndə gedən ictimai xadimlərlə məsləhətləşərək ümumi bir fikrə gəlməyə üstünlük verirdi. Heydər Əliyev yaşından aslı olmayaraq dönəminin bütün tanınmış simalarını ya şəxsən ya da qiyabi tanıyan unikal siyasət adamı idi.

***Açar sözlər**: Azərbaycan, ədəbiyyat, böyük lider, siyasət, dövlət*

## Giriş

*Xalqına özgüvəni qaytaran Lider. Xalqın öz keçmişi ilə, milli mənsubiyyəti ilə qürur duymasına, fəxr etməsinə səbəb olan dahi şəxsiyyət. Azərbaycançılıq ideologiyasını Azərbaycanın bütün xalqları üçün ən ülvi cəhətə çevirərək, dövlətin əsas aparıcı qüvvəsinə dönüşdürən Ümummilli Lider. Çoxmillətli Azərbaycan elinin tək yumruqda cəmlənib, tək ürəkdə döyünməsinə nail olan, yeni Azərbaycan modelinin memarı Heydər Əliyev. Tolerantlıq Azərbaycan xalqı üçün hüquqi bir mexanizm, sonradan yaradılmış bir multikültural dəyər deyil, bu, xalqın min illik gələnəyi, fitrətindəki insanlıq meyarıdır. Ulu Öndər məhz bu hissləri rəhbər tutaraq xalqın yaddaş kodlarındakı dünyəvi insan modelinin canlanmasına, dinindən, dilindən, irqindən, millətindən aslı olmayaraq bütöv Azərbaycan insanının ictimai şüurunun vətənpərvərlik yönündə formalaşmasına təkan vermişdir.*

*Hər xalqın özünəməxsus tarixi qəhrəmanı, xilaskarı, dar gününün pənahı olan şəxsiyyətləri olmuşdur. Hər əsrin zamanına uyğun bayraqdarı, ağsaqqalı mövcuddur. Azərbaycan xalqının da ağır günündə gələcəyə işıq tutan parlaq ulduzu, Ulu Öndəri Heydər Əliyev olmuşdur.*

Ötən əsrin 90-cı illərində Azərbaycanda yaranmış tarixi şərait xalqın keçmişdən gələn milli, ictimai, siyasi, elmi-tarixi və s. dəyərlərindən və bağlılıqlarından imtina etməsinə zəmin yaradan ağır hadisələr yaşanmışdır. İnandığı doğrulardan yanılan xalq bir boşluq, xaos içində parçalanmanın eşiyində durmuşdur. Sarsılmış dövlətin işıqlı gələcəyi naminə xalqın keçmişə gedən yolundakı maneələrin aradan qalxması və tarixi gerçəkliklərin üzə çıxması üçün əlindən gələni əsirgəməyən lider, dünənlə bu günü birləşdirən zəncirin qırılmış halqalarını bərpa edərək xalqın milli ruhunun oyanmasına rəvac vermişdir. Ölkədəki ağır iqtisadi və siyasi vəziyyətin stabilləşməsi, sülhün bərqərar olması üçün bir çox islahatlar həyata keçirən rəhbər milli-mənəvi irsimizin, mədəniyyətimizin, ədəbiyyatımızın, ana dilimizin qorunması üçün də bir çox addımlar atmışdır.

Ədəbiyyata, klassik irsə xüsusi diqqət və önəm verən ölkə rəhbəri onun insan həyatındakı danılmaz rolunu dəfələrlə qeyd etmişdir. Heydər Əliyev kamil insanın, patriotik cəmiyyətin formalaşmasına birbaşa təsir göstərən ədəbiyyat haqqındakı fikirlərini Azərbaycan yazıçılarının X qurultayındakı çıxışı zaman dilə gətirərək söyləmişdir: "Şəxsən mən ədəbiyyatı çox sevən adamam və gənc vaxtlarımdan, hətta uşaqlıqdan, məktəbdə ilk ədəbiyyat nümunələrini oxuyandan ədəbiyyatı sevmişəm... Mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyətin çox böyük rolu olmuşdur. Mən orta məktəbdə oxuyarkən Azərbaycan şairlərinin, yazıçılarının bütün əsərlərini sevə-sevə oxumuşdum... O illərdə, o uşaqlıq və gənclik illərində onlar mənə o qədər təsir edib ki, mən onları unutmamışam. Bu "oxumuşam, unutmamışam" sözləri sadəcə bir fikir deyil. Yəni onlar mənə təsir edib, mən onlardan bəhrələnmişəm, mənəvi qida almışam" [4.s.413-414].

Ulu Öndər klassik irsimizin banisi olan Nizami, Füzuli, irfani ədəbiyyatın dühası Seyid Nəsimi, Oğuz elinin adət-ənənələrini, törəsini, yaşam hekayəsini əsrlərlə diri tutan "Kitabi-Dədə Qorqud" dastanı və başqa daha neçə ədəbi irsimizə həsr olunmuş dünya səviyyəli tədbirlər keçirərək bu sərvətlərə sahib çıxmış, onların məkanının Azərbaycan torpaqları və varislərinin də Azərbaycan xalqı olduğunu bütün dünyaya bəyan etmişdir.

1973-cü ildə ölkə başçısının sərancamı ilə İmadəddin Nəsiminin 600 illik yubileyi qeyd olunur. Tədbir Bakı ilə yanaşı sovetlər ölkəsinin paytaxtı Moskva şəhərində də keçirilir. Yubileylə əlaqəli şairin "Divan"ı çap olunmuş, əsərləri müxtəlif dillərə tərcümə olunmuş və dünya mətbuatında İmadəddin Nəsimi ilə bağlı məqalələr işıqlandırılmışdır. Yaxud, 1981-ci ildə Nizami Gəncəvinin 840 illik yubileyinin keçirilməsi haqda imzalanmış sərəncam, xalqımıza aid klassik irsimizin və dahi yazarlarımızın digər xalqlara yamanması prosesinin qarşısını almış

oldu. Və ya 1976-cı ildə üzərində bütün türk dünyasının gözü olan böyük Füzulinin İraqdakı məqbərəsinin bərpası və qorunması Azərbaycanla və bir başa Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, bu gün də türk alimləri bu hadisəni xatırlayaraq "Bizim yapamadığımızı sovyetlər dönəmində Azərbaycan yaptı" deyə zikr edirlər. Daha sonra müstəqillik illərində, 1994-cü ildə Məhəmməd Füzulinin anadan olmasının 500 illik yubileyi ölkədəki ağır siyasi şəraitə baxmayaraq təntənəli şəkildə qeyd edilmişdir. Azərbaycan ədəbiyyatına olan xidmətlərdə özünü hərtərəfli doğruldan dahi siyasətçinin bu uzaqgörən həmləsi xalqın milli-tarixi yaddaşına təsir edən fundamental klassik irsə sahib olduğunu açıq şəkildə ortaya qoyaraq, tarixi köklərlə bu günü birləşdirən körpünü bərpa etmiş oldu.

Heydər Əliyev hakimiyyətə gəldiyi ilk illərdən etibarən ədəbiyyat üzərindən apardığı strateji addımlar siyasi fəaliyyətilə paralel irəliləyirdi. Böyük siyasi nüfuzu və təşkilatçılıq baçarığı sayəsində 1972-ci ildə Bakıda və Moskvada Aşıq Ələsgərin 150 illik yubileyinin keçirilməsinə nail olmuş dövlət başçısı bu geniş miqyaslı addımı ilə Ermənistan Respublikasının da bu işə cəlb olunmasını və Aşıq Ələsgərin vətəni olan Ağkilsə kəndində qəbrüstü abidəsinin ucaldılmasını təmin etmiş oldu.

Necə ki, 1930-ci illərdə ölkə ədəbiyyatı partiyanın köməkçi qolu və sovet ideologiyasının daşıyıcı strukturuna çevrilmişdi, eləcə də 1969-cu ildən başlayaraq dahi siyasətçi "rejimin oyununu" tərs çevirib Azərbaycan ədəbiyyatının inkişaf yolunu milli maraqlar üzərindən müəyyənləşdirmiş milli-mənəvi, milli-tarixi, gələnəksəl-əxlaqi köklərdə inkişaf etməsinə geniş şərait yaratmışdı.

Ölkə başçısının 1930-cu illərin ağır repressiya terroruna məruz qalmış ədəbiyyatçıların, sənətçilərin mənəvi bəraətinin bərpası yönündə gördüyü işlər, əsərlərinin yenidən geniş ictimaiyyətə təqdim olunmasını təmin edən qərarlar Azərbaycan ədəbiyyatı üçün misilsiz xidmətlərdir. Heydər Əliyev 1982-ci ildə ən çox sevdiyi dramaturq, Azərbaycan ədəbiyyatında mənzum faciənin banisi, filosof şair Hüseyn Cavidin nəşinin qalıqlarını qürbətdən, qarlı Sibir diyarından Azərbaycana gətirib, doğulduğu Naxçıvan şəhərində torpağa verilməsi kimi qəliz və məsuliyyətli bir işi sovetlər dönəmində üstlənərək, icra etmişdir. İllər sonra Hüseyn Cavid məzarı üzərində məqbərə tikilir və şairin oğlu ilə həyat yoldaşının məzarları da bura köçürülür. 1996-cı il oktyabr ayının 29-da Naxçıvanda H.Cavid məqbərəsinin açılışı zaman Ulu Öndər bu hadisəni xatırlayaraq demişdir: "1982-ci ildə Hüseyn Cavidin cənazəsini uzaq Sibirdən Azərbaycana gətirmək asan iş deyildi. Bu, böyük iradə, cəsarət tələb edirdi. Ancaq xalqımıza, millətimizə, tariximizə, mədəniyyətimizə, ədəbiyyatımıza, mənəviyyatımıza olan sədaqət mənə belə bir cəsarət göstərməyə imkan verdi. Mən bunu etdim" [4. s.333]. Daha sonra şairin anadan olmasının 120 illik yubileyinin dövlət səviyyəsində keçirilməsi də Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyev ağır repressiya illərinin məngənəsindən sıyrılaraq sağ qalmış ədəbiyyatçılara, şairlərə də xüsusi diqqət və qayğı ilə yanaşırdı. Ölkə başçısı ən çox sevdiyi "Azərbaycan" şeirinin müəllifi olan Səməd Vurğunu yaradıcılığında vətən, yurd, torpaq sevgisini aşılayan əsərlərlə zəngin, əvəzolunmaz bir şair, böyük ictimai siyasi xadim kimi görürdü. "Gənclik illərinin şairi", "Öz dövrünün şairlərinin şairi" adlandırdığı Səməd Vurğunun 70, 80, 90 illik yubileylərinin təntənəli şəkildə qeyd olunması Heydər Əliyevin bu irsə olan qayğısının nümunəsidir. Bəzən Səməd Vurğunun və digər şairlərin qaranlıq, ziddiyyətli və qəliz zaman kəsiyi olan repressiya illərinin qurbanları sırasında yer almamaları kimi təzadlı fikirlərin meydana çıxmasından qəzəblənən ölkə başçısı hadisələrin "o dövrdə baş verən proseslər çərçivəsində təhlil edilməsi və qiymətinin verilməsini" tələb edirdi [1. s.6].

Ölkə rəhbərinin 1999-cu ilin fevral ayında imzaladığı sərəncama əsasən "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin beynəlxalq səviyyədə keçirilməsi də məqsədyönlü addım idi. Bu tədbir 2000-ci ilin aprel ayında Bakıda Türkdilli dövlətlərin VI Zirvə toplantısına gəlmiş dövlət başçılarının da iştirakı ilə təntənəli şəkildə qeyd olunmuşdur. "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyi ilə bağlı tədbirin bədii hissəsindəki çıxışında dövlət başçısı demişdir: "Kitabi-

Dədə Qorqud"u dünyaya tanıtdıq. YUNESKO çərçivəsində "Kitabi-Dədə Qorqud"-un yubiley mərasimlərinin keçirilməsi, Drezdendə, Moskvada, Türkiyənin bir çox şəhərlərində, başqa yerlərdə "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin keçirilməsi və bununla bərabər yaranmış əsərlər, üç il müddətində "Kitabi-Dədə Qorqudun" təbliğ olunması "Kitabi-Dədə Qorqud" dastanını bütün dünyaya tanıtdı.

Biz fəxr edirik ki, "Kitabi-Dədə Qorqud" kimi böyük tarixi abidəmiz var. Biz fəxr edirik ki, Dədə Qorqud övladlarıyıq. Biz fəxr edirik ki, "Kitabi-Dədə Qorqud" bütün türkdilli dövlətlərə mənsub olaraq, eyni zamanda və birinci növbədə Azərbaycan xalqına mənsubdur. Fəxr edirəm ki, biz "Kitabi-Dədə Qorqud"un sahibiyik, onu yaşadacağıq və gələcək nəsillərə daha da böyük töhfələrlə verəcəyik". Bu tarixi çıxışıyla ölkə rəhbəri Azərbaycan xalqının kodeksi olan "Kitabi-Dədə Qorqud" dastanının da dəqiq ünvanını bütün dünyaya bəyan etmiş oldu.

Heydər Əliyev hakimiyyətə gəldiyi ilk illərdən (1969) etibarən Azərbaycan yazıçılarının qurultaylarında istinasız olaraq iştirak etmiş və dəyərli fikir və məsləhətlərilə hər zaman onların yanında olduğunu bildirmişdir. Ölkə başçısı ədəbiyyatın və yazarların xalqın milli təfəkkürünün təkamülündəki əvəzsiz rolunu dilə gətirərək söyləyirdi: "Bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanda, xalqımızda, millətimizdə daim milli hissiyyatları oyatmağa çalışmışlar. Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçir" [9. s.4]. Ədəbiyyata və sənətə olan sonsuz məhəbbət onun sənət adamlarına və yaradıcı şəxsiyyətlərə qarşı olan münasibətində öz bariz əksini tapmışdır. Belə ki, dövlət başçısının ədəbiyyat, elm, mədəniyyət və incəsənət sahəsində tanınmış sənətkara dövlət səviyyəsində qayğının göstərilməsində, onların yubileylərinin keçirilməsində, müxtəlif orden və mükafatlarla ödülləndirilməsində, tarixi simalara dair filmlərin çəkilməsində və s. əvəzsiz xidmətləri olmuşdur. Heydər Əliyev demək olar ki, dönəminin bütün tanınmış sənətkarları ilə şəxsən tanış idi.

Heydər Əliyev gərəkdiyi zaman bu sənətkarları mövcud rejimin qəzəbindən, həbs və sürgün bəlalarından qorumağa da nail olurdu. Götürək Bəxtiyar Vəhabzadənin "Gülüstan" poemasını yazdıqdan sonra düçar ola biləcəyi aqibəti. 1958-ci ildə qələmə alınmış bu əsər uzun illərdən bəri ucadan söylənilməsi yasaqlanmış gerçəklikləri dilə gətirirdi. Bu mövzulara toxunduğuna görə repressiya illərində necə cavidlər, mümtazlar, cavadlar tələf olmuşdur. İctimai şüurun dərin qatlarında yatan milli təfəkkürün, qəlblərdə gizlənən milli ruhun oyanmasına rəvac verən mövzuların poeziyadakı canlanması təbii ki, sovet dönəmində müəllifi ipə götürəcək qədər ciddi mövzular idi. O zaman Dövlət Təhlükəsizliyi orqanlarında çalışan Heydər Əliyev sonralar bu hadisəni xatırlayaraq, şairi böyük çətinliklər nəticəsində həbsdən xilas etdiyini söyləmişdi.

Ədəbiyyat varlığın mənəvi qidasıdır. İnsan ruhunu kamillik zirvəsinə aparan yoldur. Ədəbiyyatın adil cəmiyyət üçün nə qədər gərəkli bir amil olduğunu vurğulayan Ulu Öndər deyirdi: "Şübhəsiz ki, insanlara şeir qədər, ədəbiyyat qədər, mədəniyyət nümunələri qədər güclü təsir edən, yəni insanların mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur..." [5.s.135].

## Nəticə

*Güclü dövlətə yalnız güclü xalq sahib ola bilər. Güclü xalqın isə tarixdən gələn milli ruhu, keçmişlə bağlı törə və gələnəkləri olmalıdır. İnsanın, xalqın, dövlətin keçmişi onun gələcəyidir. Bu səbəbdən Ümummilli lider hakimiyyətə gəldiyi ilk illərdən xalqın milli-mənəvi dəyərlərinin qorunması, onun milli ruhunun oyanması, ayrı salındığı tarixi keçmişə yenidən qovuşması üçün ədəbiyyat faktorundan uğurla istifadə etmişdir. Böyük siyasətçinin idarəetmə strategiyasına daxil olan ədəbiyyat, minillik dövlətçilik tarixi olan Azərbaycan türk xalqına milli qüruru və mənsubiyyətilə fəxr etmə duyğusunu yenidən qaytardı.*

**Ədəbiyyat siyahısı:**


1. Aslan Salmansoy, "Ədəbiyyat qəzeti", 08.05.2021
2. Buludxan Xəlilov. "Xalq qəzeti", 15.07.2007
3. Əlizadə Əsgərli. "Ədəbiyyat məcmuəsi", № 1. 2018
4. Heydər Əliyev, Ədəbiyyatın yüksək borcu və amalı. Bakı, "Ozan", 1999.
5. Heydər Əliyev. Müdrik fikirlər. (Birinci kitab). Bakı, 2008
6. İsa Həbibbəyli "Azərbaycan", № 99, 03.05.2018
7. Tehran Əlişanoğlu. "Ədəbiyyat" qəzeti, 11.05.2019
8. Təyyar Salamoğlu 525-ci qəzet, 9.05.2018


**Sevinj Dadashova**

**I am proud of being an azerbaijani**

The article reflects the concern of national leader Heydar Aliyev for the literary heritage of Azerbaijan facts included. Azerbaijani language, literature and classics today among the people mastering and learning, revealing the realities that lie in the deep and dark layers of history, to our classics, which are the eyes of many peoples and peoples, or to literature, which is considered our national treasure, our ability to take responsibility for our examples is one of the achievements of a great leader's management strategy. The name, language and history have been artificially distorted for years, making him a younger brother and younger people, to a great historical past, where he was doomed to feel worthless and inferior, and he awakening of the national self-consciousness of the people who made history, with its national identitycreated the conditions for him to be proud of himself again, and said: "I am proud that I am an Azerbaijani". The great leader organized large-scale anniversary ceremonies, Imadattin Nasimi, Nizami Ganjavi, Muhammad Fizuli, "Kitabi-Dada Gorgud and other works of the classics, unambiguously translated into different languages and scattered around the world and announced to everyone that they belonged to his land. In addition to this, when the Great Leader makes any decisions ,he preferred to come to a common opinion, consulting with public figures. Heydar Aliyev a unique person who knows all the famous figures of his era, regardless of age, both personally and in absentia he was a politician.

***Keywords:*** *Azerbaijan, literature, Great leader, politics, state*

Tarix üzrə fəlsəfə doktoru, dosent
**Nigar Babaxanova** tərəfindən çapa tövsiyə olunmuşdur.